


# Məşhur Məmmədovun Qarğalıq və Seybətin kəndlərində seçicilərlə növbəti görüşü





Fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 70 saylı Masallı şəhər seçki dairəsindən namizədliyi irəli sürülən Məşhur Məmmədov "Daha güclü Azərbaycan naminə!" devizi altında Qarğalıq və Seybətin kəndlərində seçicilərlə görüşüb.

Görüşdə YAP Masallı rayon təşkilatının sədr müavini Səfalı Paşayev çıxış edərək VI çağırış Milli Məclisə növbədənkənar seçkilərdə namizədliyi irəli sürülən Məşhur Məmmədov haqqında ətraflı məlumat verib, parlament seçkilərinin əhəmiyyətindən danışıb.

Sonra çıxış edən namizəd Məşhur Məmmədov Azərbaycanın inkişafından söhbət açıb: "Artıq ənənəvi olaraq ölkəmizdə bütün sahələri əhatə edən davamlı inkişafı təmin etmək üçün konkret Dövlət proqramları həyata keçirilir. Regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, ərzaq təhlükəsizliyinin təmin olunması, təhsil, elm, mədəniyyət sahələrində əsaslı uğurların qazanılması və digər istiqamətlərdə həyata keçirilən Dövlət proqramlarının bugünkü uğurlu nəticələri bir daha sübut edir ki, məqsədyönlü şəkildə effektiv islahatlar bütün sahələrin paralel inkişafını təmin edib".

M. Məmmədov aparılan islahatlardan, Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü siyasətindən, dövlətin xalq üçün gördüyü çoxşaxəli işlərdən bəhs edərək bildirib ki, reallaşdırılan islahatların tərkib hissəsi olaraq parlament daxilində də bu mühüm addım atılır: "Aparılan uğurlu islahatlar nəticəsində dövlətimiz gündən-günə inkişaf edir, iqtisadiyyatımız güclənir, insanların rifah halı yaxşılaşır. Təbii olaraq da əldə olunan nailiyyətlər ölkə vətəndaşları tərəfindən yüksək qiymətləndirilir və cəmiyyətimiz bu siyasi kursu dəstəkləyir. Mən də sizləri bu kursun davamlı olması üçün YAP-ın namizədinə səs verməyə, Prezident İlham Əliyevə dəstək olmağa çağırıram."

✍ **Taleh Bağırov,**
***"İki sahil"***

# AYTƏN HÜSEYNOVA ŞƏHİD AİLƏSİNİ ZİYARƏT EDİB

Fevralın 9-da Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərdə 29 saylı Səbail seçki dairəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) deputatlığa namizədi Aytən Hüseynova ötən gün Badamdar qəsəbəsində şəhid Məmməd Mirzəməmmədovun ailəsini evində ziyarət edərək onun həyat yoldaşı və ailə üzvləri ilə görüşüb.

Şəhidin əziz xatirəsini ehtiramla yad edən YAP-ın deputatlığa namizədi Aytən Hüseynova şəhid ailəsinin üzvləri ilə söhbət edib, onların arzu və istəklərini dinləyib. A.Hüseynova qeyd edib ki, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə və veteranlara diqqət və qayğı göstərilməsi, onları narahat edən problemlərin həlli ölkə başçısının hər zaman böyük həssaslıqla yanaşdığı və xüsusi diqqət mərkəzində saxladığı məsələdir. Cəmiyyətimiz Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsini daim uca tutur və onların ailə üzvləri dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar.



Aytən Hüseynova, həmçinin seçki platforması haqqında məlumat verərək Yeni Azərbaycan Partiyasının bu seçkilərdə də inamlı qələbə qazanacağına əminliyini bildirib.

Görüşdə şəhidin həyat yoldaşı Dürdanə Mirzəməmmədova və övladları şəhid Məmməd Mirzəməmmədovun adının əbədiləşdirildiyini və şəhidin adının Ağsu rayonunda Aratkənd kənd tam orta məktəbinə verildiyini xüsusi məmnuniyyətlə qeyd edərək onlara göstərilən yüksək diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkürlərini bildiriblər, məişət şəraitlərindən, şəhid ailələrinə ayrılan və ildən-ilə artırılan sosial müavinətlərdən razılıqlarını ifadə ediblər.



Aytən Hüseynovaya qarşıdan gələn parlament seçkilərində uğurlar arzu edən şəhid ailəsinin üzvləri hər zaman olduğu kimi, bu seçkilərdə də Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləyəcəklərini bildiriblər.

✍ **Cavid Əkbərov,**
***"İki sahil"***

# Şahin İsmayılov beyləqanlıların etibar etdiyi namizəddir

**81 saylı Beyləqan seçki dairəsi üzrə YAP-ın namizədi Şahin İsmayılovun təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Yanvarın 30-da Şahin İsmayılovun Beyləqan rayonunun Kəbirli, Tatalılar və Eyvazalılar, yanvarın 31-də isə Birinci Aşıqlı, İkinci Aşıqlı və Allahyarlı kəndlərində seçicilərlə görüşləri keçirilib.**



Görüşlərdə çıxış edən YAP Beyləqan rayon təşkilatının sədri Rəfael Pəsiyev bildirib ki, Şahin İsmayılovu rayonumuzda hamı yaxşı tanıyır. O, Milli Məclisin deputatı kimi həmişə problemlərimizlə maraqlanıb, onların həlli istiqamətində ciddi təşəbbüslərlə çıxış edib. Bir sözlə, onun Milli Məclisdəki fəaliyyəti ümumilikdə xalqımız və dövlətimiz üçün çox səmərəli olub. İnanıram ki, beyləqanlılar bu seçkidə də partiyamızın namizədini yekdilliklə dəstəkləyəcəklər.

Görüşlərdə çıxış edən Şahin İsmayılov bildirib ki, ölkəmiz bu gün çox böyük iqtisadi və siyasi islahatların ərəfəsindədir. Biz cənab Prezidentimizə bu işlərdə dəstək olmalıyıq. Ona görə də partiyamızın namizədlərinə dəstək olmaq dövlətimizin uğurlarına dəstək olmaq deməkdir.

Şahin İsmayılov görüşlərdəki çıxışlarında xüsusi vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində respublikamız 2019-cu ildə iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə etdi, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmləndi. Ötən ilin əvvəlindən sosial istiqamətdə böyük addımların atılmasına başlandı. Fevralda ilk böyük sosial paket qəbul edildi və martın 1-dən minimum əməkhaqqı, minimum pensiyalarda ciddi artımlar oldu, bütün müavinətlər artırıldı, yeni müavinət növlərinin tətbiqinə başlanıldı, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda işçilərin maaşları artırıldı. İlin ortasında ikinci sosial paketin qəbulu haqqında da Sərəncam verildi ki, sentyabrdan qüvvəyə minən dəyişikliyə əsasən, pensiya, maaşlar yenidən artdı. Nəticədə minimum əməkhaqqı il ərzində artırılaraq 250 manata, minimum pensiya isə 200 manata çatdırıldı. Bundan başqa, ayrı-ayrı sahələrdə əməkhaqlarında növbəti artımlar həyata keçirildi.

Hələ indiyə qədər Azərbaycanda bir ilin ərzində əməkhaqqı və pensiyaların bu qədər artırılması, iki sosial paketin həyata keçirilməsi faktına rast gəlinməmişdi. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə ulu öndər Heydər Əliyevin müəyyən etdiyi yolla irəliləyir. Bunun ən başlıca səbəbi Azərbaycanda həyata keçirilən siyasətin xalqın mənafeyini tam ifadə etməsidir.

Görüşlərdə çıxış edən çoxsaylı seçicilər Şahin İsmayılova səs verəcəklərini birmənalı şəkildə bildiriblər.

✍ **Elçin Zaman,**
***"İki sahil"***